

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 18 (21.170)

28 yanvar 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Yanvarın 27-də Heydər Əliyev Mərkəzində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda giriş nitqi söylədi.

Sonra İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev, Kənd Təsərrüfatı naziri Heydər Əsədov, “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov çıxış etdilər.

Daha sonra Azərbaycan Prezidenti konfransda yekun nitqi söylədi.



## Xarici iqtisadi əlaqələr iqtisadi gücün göstəricisidir

***Hər bir ölkənin iqtisadi gücünün və eləcə də beynəlxalq aləmdə nüfuzunun göstəricilərindən biri onun xarici ticarətdəki mövqeyidir. Müstəqil ölkə kimi Azərbaycanın xarici ticarət əlaqələri genişləndikcə onun regionlarının da bu sahədə payı artır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasından da xarici ölkələrə ixrac olunan və xaricdən gətirilən mal və məhsulların həcmi iqtisadiyyatın ümumi inkişafı və əhalinin istehlak tələbatı fonunda stabil dinamika ilə artmaqdadır.***

2014-cü ildə muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 517 milyon 427 min ABŞ dollarına çatmışdır ki, bu da bir il öncəki müvafiq göstəricidən 1,1 faiz çoxdur. Xarici ticarət dövriyyəsinin 408 milyon 640 min ABŞ dollarını və ya 79 faizini ixrac, 108 milyon 787 min ABŞ dollarını və ya 21 faizini isə idxal təşkil etmiş və 299 milyon 853 min ABŞ dolları həcmində müsbət saldo yaranmışdır. Son bir il ərzində ixracın həcmi 1,5 faiz artmış, idxalın həcmi isə 0,7 faiz azalmışdır.

Sözsüz ki, xarici ticarətdə bu, son hədd deyildir. Naxçıvan Muxtar Respublikasının müasir inkişaf səviyyəsində daha çox həcmdə idxal-ixrac əməliyyatı aparmaq, daha çox adda və çeşiddə hazır məhsul ixracına nail olmaq mümkündür. Qlobal böhrana baxmayaraq, ölkəmizdə bərqərar olunmuş möhkəm sabitlik, milli valyutanın stabil kursu hər keçən gün daha güclü xarici sərmayənin ölkəmizə marağını artırır. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın şaxələndirilməsi, elektron idarəetməyə keçid, bank, maliyyə, sığorta, vergi sistemində yaradılmış şəffaflıq bu inamı daha da artırır. İndi Naxçıvanda yeni texnologiyanın tətbiqi və müxtəlif yerli xammaldan istifadə ilə çox çeşiddə yüksəkkeyfiyyətli hazır məhsulu xarici bazarlara çıxarmaq mümkündür. Bu sahədə sənaye sahəsində əldə olunmuş rəqəmlər diqqətçəkicidir. Belə ki, ötən dövr ərzində muxtar respublikada sənaye sahəsində istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərmiş və təkcə 2014-cü ildə 313 milyon 481 min Amerika Birləşmiş Ştatları dolları dəyərində sənaye məhsulu ixrac olunmuşdur. Muxtar respublikadan ixrac olunan mallar arasında kənd təsərrüfatı məhsullarının da həcminin artması diqqətçəkən mühüm faktdır. Yaxın zamanlara qədər bu sahədə tamamilə idxal göstəriciləri olduğu halda, artıq etibarlı ərzaq təminatı sisteminin qurulması və daxili bazarda tələbatın səmərəli ödənilməsi ilə bu sahədə ixrac imkanları da yaradılmış və 2014-cü ildə muxtar respublikada tələbatdan çox istehsal edilmiş 95 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları, xüsusilə də meyvə və tərəvəz məhsulları xarici bazarlara ixrac olunmuşdur. Bu da, öz növbəsində, muxtar respublikada regional inkişaf hədəflərinin daha da genişləndiyinin göstəricisidir.

## Yeni iqtisadi layihələr

### Kəngərli rayonunun Böyükdüz massivində yeni zavod inşa olunur



Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər nəticəsində Naxçıvanda idxalıəvəzləyici və ixracyönümlü məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb. Bu istiqamətdə işlər ötən ildə də uğurla davam etdirilib.

“Gəmiqaya Holdinq” Şirkətlər İttifaqı tərəfindən Kəngərli rayonunun Böyükdüz massivində alçıpan örtüklər, gips, əhəng və məsaməli beton istehsal edilələcək yeni zavodun inşasına başlanılıb.

Müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində inşaat materiallarına artan tələbatın yerli istehsal hesabına ödənilməsi zərurətindən yaradılır. Cari ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulan zavodda ildə 2 milyon kvadratmetr alçıpan örtük, 20 min ton gips, 100 min kubmetr məsaməli beton və saatda 12 ton əhəng istehsal ediləcək ki, bu da daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, bu yerli inşaat materiallarının xarici bazarlara çıxarılmasına da imkan yaradacaq. Əvvəllər bu inşaat materiallarına olan tələbat xaricdən idxal olunan məhsullar hesabına ödənilir, əlavə daşınma xərci çəkilirdisə, yeni layihənin reallaşması ilə bu problem aradan qaldırılacaq.

İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün obyektə “Gəmiqaya İnşaat” MMC-nin təcrübəli inşaatçıları və müasir maşın-mexanizmləri cəlb olunub. Hazırda obyektdə beton, dəmir konstruksiya işləri aparılır.

## Quruculuq

### Naxçıvan şəhərində quruculuq işləri geniş vüsət alıb

***Naxçıvan Muxtar Respublikasında aparılan tikinti-quruculuq işlərinin geniş vüsət alması paytaxt Naxçıvan şəhərinin simasını xeyli dərəcədə dəyişdirib. Muxtar respublikada həyata keçirilən quruculuq tədbirlərinin bir hissəsini də dövlət qurumları üçün tikilən yeni inzibati binalar təşkil edir. Təşkilat və müəssisələrdə normal iş şəraiti yaratmaq məqsədilə həyata keçirilən bu tədbirlərin həcmi və coğrafiyası getdikcə genişlənməkdədir.***

Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində inşasına 2013-cü ildən başlanılmış Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti üçün yeni bina da yaxın gələcəkdə miqrasiya xidməti əməkdaşlarının rahat iş yerinə çevriləcəkdir.

“Gəmiqaya İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikintisi yekunlaşdırılan bina zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarətdir. Binanın daxilində bütün işlər, demək olar ki, tamamlanıb. Hazırda binanın arxa fasad hissəsi üzlük daşla üzlənir. Yaxın vaxtlarda obyektin ətrafında abadlıq işlərinə başlanılacaq. Bina hazır olduqdan sonra zirzəmi hissədə qazanxana, arxiv, yeməkxana, məşq və idman zalı, bütün mərtəbələrdə iş otaqları olmaqla, üçüncü mərtəbədə tədris otağı, kitabxana və müşavirə zalı, beşinci mərtəbədə isə iclas zalı yerləşəcəkdir.

Naxçıvan şəhərinin İslam Səfərli küçəsində inşa olunan 400 yerlik avtomobil dayanacağı isə şəhərimizin simasına yeni bir gözəllik verəcək növbəti ünvanlardan olacaq. Burada inşaat işlərini “Dizayn İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi həyata keçirir. Obyektdən aldığımız məlumata görə, avtomobil dayanacağı zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olacaq. Üçkorpuslu dayanacaq binasının I korpusunda beton-qəlib işləri yekunlaşıb, ikinci korpusun sonuncu mərtəbəsində və üçüncü korpusda isə beton-qəlib və metal-konstruksiya işləri davam etdirilir. Binanın daxilində quraşdırılacaq lift və pilləkən kənarlarının hörgüsü isə ikinci və üçüncü mərtəbələrdə davam etdirilir. Binanın fasad hissəsində daha estetik görüntü əldə etmək üçün, əsasən, şüşə konstruksiyalardan istifadə ediləcək.

Obyekt hazır olduqdan sonra ümumi sahəsi 5570 kvadratmetr olan avtomobil dayanacağının bütün mərtəbələrində avtoservis xidmətləri göstəriləcək. Yeni avtomobil dayanacağında yüksəksəviyyəli parkinq xidmətini həyata keçirmək üçün hərtərəfli şərait yaradılacaq.

Muxtar respublikada zabitlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər də davamlı xarakter daşıyır və bu tədbirlər dövlətimizin hərbi qulluqçulara qayğısı kimi dəyərləndirilir. Naxçıvan şəhərinin Babək məhəlləsində Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabitləri üçün yeni yataqxana binasının tikilməsi bu qayğının əyani sübutudur.

“Gəmiqaya İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən tikintisi davam etdirilən yataqxana binasının təməli 2014-cü ilin iyul ayında qoyulub. Bina zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olacaq. Hazırda binanın beşinci mərtəbəsində arakəsmələrin hörülməsi yekunlaşmaq üzrədir. Altıncı mərtəbədə isə beton-qəlib işləri görülür. Üçüncü mərtəbəyə qədər pəncərələr salınıb. Birinci mərtəbənin daxilində isə suvaq işləri aparılır. İkibloklu, 48 mənzilli yataqxana binasının zirzəmi hissəsində bərbər, anbar, camaşırxana və mağaza yerləşəcək, hər blokda lift quraşdırılacaq.

Yeni yataqxana binası Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində xidmət edən zabitlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

**Xəbərlər şöbəsi**







# Kəngərli: yüksək dövlət qayğısı sosial-iqtisadi inkişafa güclü təkan verib



***Kəngərli rayonu 2004-cü ildə yaradılıb. Çox qısa bir müddət ərzində rayon mərkəzi olan Qıvraq qəsəbəsində bütün infrastruktur qurulub. Bir zamanlar çöllük və boş ərazilərdən ibarət olan sahələr indi bir-birindən yaraşıqlı inzibati binaların, gözəl park və istirahət mərkəzinin yerləşdiyi, rahat yolların çəkildiyi məkana çevrilib.***

Kəngərli rayonu 1 qəsəbə və 10 kəndi özündə birləşdirir. Ötən dövr ərzində burada bütün sahələri əhatə etməklə xeyli iş görülüb. Rayon mərkəzi ilə kəndləri birləşdirən bütün avtomobil yolları təmir olunub. Yurdçu kəndi istisna olmaqla, bütün kənd yaşayış məntəqələrində kompleks quruculuq işləri aparılıb. Həyata keçirilən quruculuq tədbirləri "Muxtariyyət ili"ndə də uğurla davam etdirilib. Məsələn, Kəngərli Rayon Mərkəzi Xəstəxanası və Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin binaları əsaslı təmir və yenidənqurma işlərindən sonra, rayon mərkəzində yerləşən hərbi hissədə Təlim-Tədris Mərkəzi, Qarabağlar kəndində yeni xidmət mərkəzi və Böyükdüz kəndində istixana kompleksi isə tikilərək ötən il istifadəyə verilib. Rayon mərkəzində ötən ildən tikintisi aparılan Uşaq-gənclər şahmat məktəbi, Elektrik Şəbəkəsi, Təhsil və Torpaq şöbələri üçün yeni binalarda inşaat işləri, demək olar ki, yekunlaşıb. Hazırda isə Qıvraq qəsəbəsində ticarət mərkəzinin tikintisi davam etdirilir.

Rayonda aparılan genişhəcmli quruculuq-abadlıq işləri sakinlər tərəfindən də sevinclə qarşılanır. Qarabağlar kənd sakini Abbasəli Nəcəfovun dediklərindən: "Qarabağlar kəndi rayonun ən böyük kəndlərindəndir. Kənddə iki tam orta məktəb var. Biri əvvəl, biri isə bu yaxınlarda əsaslı təmir olunaraq istifadəyə verildi. Kənddə idarəetmə qurumları üçün bir müddət bundan əvvəl bina tikilib istifadəyə verilib, bu yaxınlarda isə yeni xidmət mərkəzi fəaliyyətə başlayıb. Kəndimizdəki yollar əsaslı təmir olunub, asfalt salınıb. Eyni zamanda asfalt salınan yolların kənarlarındakı hasarlar da dövlət vəsaiti hesabına tikilib. Muxtar respublikamızın böyük kəndlərindən olan Qarabağlar kəndi heç zaman bu qədər genişhəcmli quruculuq işlərinin şahidi olmayıb".

Qıvraq qəsəbə sakini Rauf Əliyev isə rayon mərkəzində görülmüş işləri belə dəyərləndirir: "10 il bundan əvvəl Qıvraq kəndinin qəsəbə olacağını, burada rayon mərkəzi yaradılacağını heç kim təsəvvür edə bilməzdi. Sovetlər dövründən hər kəs Qıvraq kəndini, əsasən, burada yerləşən hərbi hissəyə görə tanıyırdı. İndi isə yeni inzibati binalar, rahat yollar, gözəl park və mədəniyyət müəssisələri Qıvraq qəsəbəsini rayon mərkəzi kimi tanıdır. Hətta burada yerləşən hərbi hissədə belə, köhnədən əsər-əlamət qalmayıb. Yeni əsgər yataqxanası, yeməkxana, Təlim-Tədris Mərkəzi və digər hərbi təyinatlı binalar, eləcə də hərbi hissənin ətrafında aparılmış abadlıq tədbirləri buranın mənzərəsini xeyli dəyişib. Azərbaycanın müxtəlif bölgələrindən övladlarını ziyarətə gələn əsgər valideynləri də bu gözəlliklərdən həmişə ağızdolusu danışırlar. Qəsəbəmiz haqqında, burada yerləşən nümunəvi hərbi hissə haqqında bu fikirləri eşitmək bizim üçün çox xoşdur".

Bu fikirləri rayonun bütün yaşayış məntəqələrində yaşayan sakinlərin dilindən eşitmək olar. İndi isə rayonda müxtəlif sahələrin inkişafına ötən ilin göstəriciləri ilə nəzər salaq. Muxtar respublikanın digər rayonlarında olduğu kimi, Kəngərli rayonunda da kənd təsərrüfatının inkişaf etdirilməsi qarşıya qoyulmuş əsas hədəflərdəndir. Buna görə də hər il rayonda əkin sahələri artırılır, meliorativ tədbirlərin həyata keçirilməsində mütərəqqi üsullardan istifadəyə daha çox üstünlük verilir. 2014-cü ildə rayonda əkin sahələrinin və yaşıllıqların suvarılması üçün 3320 metrdən artıq yeni suvarma boru xətləri çəkilib. Rayon ərazisindəki bulaq və axar sulardan suvarma məqsədilə istifadə etmək üçün onların suyu Qarabağlar, Xok, Çalxanqala və Yurdçu kəndlərində olan göllərə yönəldilib. Ötən il rayonda 4598 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 11 min 894 ton məhsul, o cümlədən 2647,2 hektar sahədən 6548 ton buğda, 1629,8 hektar sahədən 4424 ton arpa, 321 hektar sahədən 922 ton dənli-paxlalılar, 98 hektar sahədən 452 ton qarğıdalı, 113 hektar sahədən 299,5 ton günəbaxan, 214 hektar sahədən 2854,7 ton kartof, 293 hektar sahədən 3572 ton tərəvəz, 179 hektar sahədən 2180,2 ton bostan məhsulları, meyvə bağlarından 4476 ton meyvə, üzüm bağlarından 475 ton üzüm yığılıb.

Ötən il rayon ərazisində 10 hektar yeni bağ salınıb, 13 hektar ərazidə meşəbərpa işləri aparılıb, 8600 ədəd meyvə, 800 ədəd meşə, 280 ədəd dekorativ ağac, 5200 ədəd gül kolu əkilib.

Məşğulluq məsələlərinin həlli istiqamətində muxtar respublikada həyata keçirilən tədbirlər Kəngərli rayonunda da əsas həllivacib məsələlərdən olub. Xüsusilə bu məqsədlə təşkil olunan əmək yarmarkaları işaxtaran vətəndaşların işlə təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. 2014-cü ildə rayon Məşğulluq Mərkəzində 246 nəfər işaxtaran vətəndaş qeydiyyata alınıb, 237 nəfər müxtəlif sahələrdə işlə təmin olunub. Bəhs olunan dövr ərzində 4 dəfə əmək yarmarkası keçirilib. Bu yarmarkalarda 104 nəfər vətəndaş daimi işlə təmin edilib.

"Muxtariyyət ili" rayonda təhsil, mədəniyyət və səhiyyə sahələrinin inkişafı ilə də əlamətdar olub. Ötən tədris ilində rayonun ümumtəhsil məktəblərini bitirən 334 məzundan 1 nəfəri "Qızıl", 1 nəfəri "Gümüş" medala layiq görülüb. Məzunlardan 102 nəfər müxtəlif ali, 25 nəfər isə orta ixtisas məktəblərinə qəbul olunub. Ali məktəblərə qəbul olunan məzunların 14 nəfəri 500-700 intervalında bal toplayıb. 27 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.

Kəngərli Rayon Mərkəzi Xəstəxanası binasının yenidən qurulması rayonda səhiyyə xidmətinin yeni mərhələyə qədəm qoymasına şərait yaradıb. Ötən il əhalinin tibbi müayinədən keçirilməsi, habelə yaşayış məntəqələrində səhiyyə maarifi tədbirlərinin həyata keçirilməsi diqqətdə saxlanılıb.

Kəngərli rayonunda 1 mərkəzləşdirilmiş kitabxana sistemi və 11 kənd filialı, 1 uşaq kitabxanası, 5 kənd mədəniyyət evi, 5 kənd klubu, 2 musiqi məktəbi, 2 muzey fəaliyyət göstərir. Rayon ərazisində 9 dünya, 39 ölkə, 39 yerli əhəmiyyətli olmaqla, 87 tarixi-memarlıq və arxeoloji abidə mövcuddur. Ötən il rayonda xalq yaradıcılığı günlərinin keçirilməsi ilə əlaqədar olaraq, folklor kollektivlərinin repertuarının zənginləşdirilməsi, eləcə də mədəniyyət müəssisələri tərəfindən bayram günlərində və digər əlamətdar günlərdə mədəni-kütləvi tədbirlərin keçirilməsi diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə təşkil olunmuş "İstedadlar sorağında" muxtar respublika baxış-müsabiqəsində rayon Mədəniyyət Evinin "Gülümhey" folklor qrupu və uşaq yallı kollektivi diplomlara layiq görülüb.

***Bəli, Kəngərli rayonu muxtar respublikamızın ən gənc rayonu olmasına baxmayaraq, regionun digər bölgələri kimi, özünün yeni inkişaf mərhələsini yaşamaqdadır. Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi bu qədim Kəngərli yurduna da öz töhfələrini verməkdədir. Yeni qədəm qoyduğumuz "Kənd təsərrüfatı ili" inanırıq ki, rayonda kənd təsərrüfatı sahələrindən əlavə, digər sahələrin də inkişafına geniş imkanlar açacaq. Bu təsərrüfat ilində hər kəsə uğurlar!***

**Səbuhi HƏSƏNOV**

***Son illər dünyada ərzaq istehsalının illik artımının azalması tendensiyası müşahidə edilir və bu azalmanın növbəti illərdə də davam edəcəyi proqnozlaşdırılır. Qlobal istiləşmə və iqlim dəyişkənliyi insanların ərzaq məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayan kənd təsərrüfatı sektoruna daha çox mənfi təsir göstərməkdədir. Kənd təsərrüfatını iqlim dəyişikliklərinə adaptasiya etmək qlobal ərzaq təhlükəsizliyinin təmin olunması və ekosistemi qorumaq baxımından vacib olmaqla yanaşı, həm də xeyli xərc tələb edir. Bütün bu faktlar onu göstərir ki, hazırda ərzaq təhlükəsizliyi probleminin səmərəli həlli dünyada gedən sürətli qloballaşma prosesi fonunda ən mühüm məsələlərdəndir.***

*"Kənd təsərrüfatı ili"*

# Məhsul bolluğuna zəmanət

1995-ci ildən etibarən muxtar respublikada həyata keçirilən aqrar islahatlar və bazar iqtisadiyyatına keçidin mühüm elementlərindən olan sahibkarlığın inkişafı, bu sahəyə dövlət dəstəyinin göstərilməsi ərzaq təhlükəsizliyi sahəsində mühüm dəyişikliklərin yaranmasına gətirib çıxarmış, müstəqilliyin əvvəllərində mövcud olan qıtlıq tamamilə aradan qaldırılmış, ərzaq bazarında rəqabət səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaranmışdır. Bu isə istehlakçıların seçim imkanlarının genişlənməsinə səbəb olmuşdur.

Kənd təsərrüfatı istər ərzaq təhlükəsizliyinin təmin olunmasında, istərsə də emal müəssisələrinin xammalla təchizatında mühüm rol oynayır. Bu cəhətdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb edir.

Dövlət proqramı kənd təsərrüfatı məhsulları istehsalının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaqla təmin edilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına, sahibkarlığın inkişafına stimul olmuşdur.

Bu gün dövlət tərəfindən kənd təsərrüfatı istehsalçılarına və emal müəssisələrinə geniş texniki və maliyyə dəstəyinin göstərilməsi aqrar bölmənin inkişafında böyük rol oynayır. "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamına uyğun olaraq, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, buğda səpininin, toxum və ting istehsalının subsidiyalaşdırılması kənd təsərrüfatı məhsulu istehsalına əsaslı yardım hesab olunur.

Aparılan məqsədyönlü siyasət aqrar sektorda istehsalın artmasına, məhsul bolluğunun yaranmasına səbəb olmuşdur. 2014-cü ildə muxtar respublikada 355 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu, 2013-cü ildəki istehsaldan 6 faiz çoxdur.

Muxtar respublikada kənd təsərrüfatının aparıcı sahələrindən biri əkinçilikdir. Torpaq mülkiyyətçiləri bu sahədə zəngin təcrübəyə malikdirlər. Torpaq mülkiyyətçilərinə göstərilən hərtərəfli qayğı, eləcə də iqlim və coğrafi şərait əkinçilikdə uğurlar qazanılmasını təmin etmişdir.

Kənd təsərrüfatında əsas sahə sayılan taxılçılığın inkişafına xüsusi diqqət yetirilir. Belə ki, 2014-cü ildə muxtar respublika üzrə 35 min 750 hektar sahədə taxıl əkilmişdir. Taxıl zəmilərindən 103 min 70 ton məhsul toplanmışdır.

Aqrar sahədə nəzərdə tutulan xidmət işlərinin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onları lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin etmək məqsədilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə ötən il 260 ədəd müxtəliftəyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmiş, lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir.

Ərzaq təhlükəsizliyinin başlıca şərtlərindən biri dövlət ehtiyatlarının təşkili və onların səmərəli idarə olunması, fövqəladə hallara hazırlığın təmin edilməsidir. Hazırda muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanılması və satışını təmin edən soyuducu anbarların sayı 20-yə, ümumi tutumu isə 12 min 250 tona çatdırılmışdır.

Muxtar respublikada taxılçılıqla yanaşı, kartofçuluğun da inkişafı diqqət mərkəzindədir. Son illərə qədər regionda bu məhsula olan tələbat kənardan gətirilməklə ödənilirdi. İkinci çörək sayılan kartofa olan tələbatın ödənilməsi məqsədilə görülən işlər bu cəhətdən diqqəti çəkir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda torpaqlardan səmərəli istifadə olunması, investisiyaların yatırılması, müxtəlif servis mərkəzlərinin yaradılması, daxili bazarın qorunması, tələbata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsi kimi zəruri tədbirlərin görülməsi qarşıya vəzifə kimi qoyulmuşdur. Stimullaşdırıcı təsirə malik olan bu tədbirlərin nəticəsidir ki, kartof əkini sahələri də ildən-ilə genişləndirilir.

İstehsal olunmuş məhsulların emalı, saxlanılması və satışının təşkili mühüm məsələlərdəndir. Son illər kənd təsərrüfatı məhsullarının emalı sahəsində böyük quruculuq işləri həyata keçirilir. Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunması üçün ötən il 6 yeni istixana kompleksi istifadəyə verilmişdir.

Meyvə-tərəvəz və digər ərzaq məhsullarının istehsalında artıma nail olunması üçün emal sənayesinin inkişafı ilə bağlı tədbirlər müəyyənləşdirilmişdir. Qeyd olunanlarla yanaşı, kənd təsərrüfatı məhsullarının ixracını artırmaq, xarici bazarlarda rəqabətqabiliyyətli məhsul satmaq üçün məhsulun çeşidlənməsi, qablaşdırılması, saxlanmasına stimul olan digər tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Muxtar respublikada kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının öz məhsullarını birbaşa satışa çıxarmaq və əhalinin daha ucuz qiymətlərlə kənd təsərrüfatı məhsulları ilə təmin olunması məqsədilə şəhər və rayon mərkəzlərində yarmarkalar təşkil olunur.

Kənd təsərrüfatında əkinçiliklə yanaşı, heyvandarlıq da sürətlə inkişaf etdirilir. Bu inkişaf isə muxtar respublikada baytarlıq xidmətinin səviyyəsinin yüksəldilməsi, məhsuldar cinsli mal-qaranın sayının artırılması istiqamətində görülən tədbirlərin nəticəsidir. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq məqsədilə son illər 1678 baş cins mal-qara gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir.

Maldarlıqla yanaşı, quşçuluğun inkişaf etdirilməsi də diqqətdən kənarda qalmamışdır. Daxili bazarda quş ətinə və yumurtaya olan tələbatı yerli istehsal hesabına ödəmək üçün 2014-cü ildə 4 yeni quşçuluq təsərrüfatı yaradılmış, quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılmışdır.

Muxtar respublikada arıçılığa da diqqət yetirilir. Əsasən, keçmiş ənənələrə söykənən bu sahədə də uğurlar əldə olunmuşdur. Arıçılıqla məşğul olan sahibkarlara dövlət dəstəyi göstərilir və bu maliyyə dəstəyinin həcmi ildən-ilə artır. Balın emalı və qablaşdırılması ilə məşğul olan istehsal sahələrinin istifadəyə verilməsi bu sahənin genişləndirilməsində əhəmiyyətli rol oynayır. 2014-cü ildə muxtar respublikada arı ailələrinin sayı 69 minə çatdırılmışdır.

Ərzaq məhsulları ilə etibarlı təminata dair dövlət proqramının əsas məqsədi muxtar respublika əhalisinin hər bir nəfərinin sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsinə nail olmaqdır. Ötən ilin yekunları bir daha göstərdi ki, muxtar respublikada əhalinin təhlükəsiz ərzaqla davamlı təmin olunması üçün mühüm tədbirlər görülmüş və görülməkdədir.

Aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2014-cü ili uğurla başa vurduq. Lakin əldə olunan nailiyyətlər bizi arxayınlaşdırmır. Yeni qədəm qoyduğumuz 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi məsuliyyətimizi daha da artırıb. Ötən il dekabr ayının 27-də keçirilən dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onuncu sessiyasında Ali Məclis Sədrinin dediyi kimi: ***"2015-ci ildə muxtar respublikada tarixən formalaşmış təsərrüfatçılıq ənənələri inkişaf etdirilməli, əhalinin ərzaq məhsulları ilə təminatı davamlı xarakter almalı, emal müəssisələri xammalla fasiləsiz təchiz edilməlidir. Muxtar respublikanın ərzaq təhlükəsizliyi və meyvə-tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da kənd təsərrüfatına xüsusi diqqət yetirilməsini tələb edir".***

*Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan zəhmət adamları qarşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirmək əzmindədirlər.*

**Tural HAQVERDİYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri***

Əziz Şərif – 120

# Görkəmli ədəbiyyatşünas və böyük ziyalı



*Bəşər mədəniyyətinə zaman-zaman dəyərli töhfələr vermiş, məşhur dahilər bəxş etmiş ulu Naxçıvanın iyirminci əsrdə yetirdiyi ən böyük ziyalılardan biri filologiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Əziz Şərifdir. Onun adı Məmmədcəfər Cəfərov, Abbas Zamanov, Məmmədhüseyn Təhmasib, Əli Sultanlı kimi ustad alimlərlə bir sırada çəkilir.*

Əziz Şərifin yaradıcılıq fəaliyyəti çoxcəhətli və zəngindir. "Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 26 yanvar 2015-ci il tarixli Sərəncamında qeyd olunduğu kimi: ***"Maraqlı həyat və zəngin yaradıcılıq yolu keçən Əziz Şərif ədəbi tənqid və ədəbiyyatşünaslıq sahəsində səmərəli fəaliyyət göstərmiş, XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının az tədqiq olunan ədəbi şəxsiyyətləri haqqında qiymətli əsərlər yazmışdır. Çoxlu məqalələrin, elmi əsərlərin, tənqidi-bioqrafik oçerk və monoqrafiyaların müəllifi olan Əziz Şərifin elmi fəaliyyəti və axtarışları nəticəsində Azərbaycanın görkəmli yazıçılarının bir sıra əsərləri, XIX-XX əsrlərə dair çoxsaylı məktublar, sənəd və fotoşəkillər, qiymətli əlyazma materialları aşkarlanaraq elmi və ədəbi mühitə təqdim edilmişdir. Müasir Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı olan Əziz Şərif bədii tərcümə və publisistika sahəsində də səmərəli fəaliyyət göstərmiş, Azərbaycan klassik yazıçı və mütəfəkkirlərinin əsərlərini rus dilinə tərcümə etmişdir".***

Naxçıvanda doğulub boya-başa çatan, burada əsası görkəmli maarifçi M.T.Sidqi tərəfindən qoyulmuş "Tərbiyə məktəbi"ndə oxuyan Əziz Şərif sonra Tiflisdə təhsilini davam etdirmiş, Moskvada ali təhsil almışdır. Filoloq alim kimi böyük nüfuz qazanan Əziz Şərif Moskvada ozamankı SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunda, eləcə də M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda işləmiş, M.V.Lomonosov adına Moskva Dövlət Universitetində kafedra müdiri, professor kimi səmərəli fəaliyyət göstərmiş, Azərbaycan ədəbiyyatını rusdilli auditoriyada layiqincə tədris və təbliğ etmişdir.

Əziz Şərifin adı çəkiləndə, hər şeydən öncə, onun qiymətli ədəbiyyatşünaslıq irsi göz önünə gəlir. Hələ yeniyetməlik illərindən mətbuatda müxtəlif mövzularda ədəbi-tənqidi məqalələr dərc etdirən Əziz Şərif elmi axtarışlarını getdikcə genişləndirmiş, fundamental tədqiqatları ilə şöhrətlənmişdir. O xüsusən XIX-XX əsrlər Azərbaycan ədəbiyyatının bir çox nümayəndələrinin yaradıcılığı ilə bağlı diqqətəlayiq araşdırmalar aparmışdır. Görkəmli alimin M.F.Axundzadə, M.T.Sidqi, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, H.Cavid, C.Cabbarlı kimi sənətkarlar barədəki kitab və məqalələrində onların yaradıcılığı məharətlə araşdırılmışdır. Bu sırada ustad alimin M.F.Axundzadənin satira sənətkarlığı, obrazlar aləmi, yaradıcılıq əlaqələri və sair haqqında ciddi tədqiqatlarını ayrıca vurğulamaq gərəkdir. M.F.Axundzadənin rus şairi A.S.Puşkinin ölümü ilə əlaqədar yazdığı "Şərq poeması"nın orijinalının məhz ilk dəfə Əziz Şərif tərəfindən arxivdən tapılaraq elmi-ədəbi ictimaiyyətə çatdırılması da xatırlatmaq yerinə düşər. Məşhur maarifçi ədib M.T.Sidqinin həyat və yaradıcılığı barədə də Əziz Şərifin dolğun təhlilləri təqdirəlayiqdir. C.Cabbarlının dramaturgiyasına həsr olunmuş araşdırma da öz elmi mötəbərliyi ilə səciyyələnir.

Professor Əziz Şərifin elmi tədqiqatlarının ana xətti Mollanəsrəddinçi ədiblərin yaradıcılığı ilə əlaqədardır. O, istedadlı sənətkar Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyası haqqında namizədlik, "Molla Nəsrəddin" ədəbi məktəbinin, tənqidi realist ədəbi platformanın başçısı Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətinin 1906-cı ilə qədərki mərhələsi barədə doktorluq dissertasiyası yazaraq uğurla müdafiə etmişdir. O da xüsusi önəm daşıyır ki, Əziz Şərifə qədər Mirzə Cəlildən yazanlar əksər məqamlarda onun yaradıcılıq fəaliyyətinin 1905-ci ildən sonrakı mərhələsini diqqət mərkəzinə çəkmişdilər. Amma Əziz Şərif çox haqlı olaraq mövzuya kompleks yanaşma nümayiş etdirmiş, Mirzə Cəlilin 1906-cı ilə qədərki ailə və təhsil mühiti, müasirləri, ictimai fəaliyyəti, bədii, publisistik əsərləri, tərcümələri və sair barədə əhatəli, dolğun tədqiqat aparmış, çoxsaylı arxiv, dövri mətbuat materialları və digər qaynaqlar əsasında böyük ədibin dünyagörüşünün formalaşma mərhələsinin mükəmməl elmi mənzərəsini yaratmışdır. Alimin C.Məmmədquluzadə haqqında yazdığı "Molla Nəsrəddin" necə yarandı?" adlı fundamental monoqrafiyası doktorluq dissertasiyasının əsas məğzini əks etdirən dəyərli araşdırma kimi bu gün də mirzəcəlilşünaslığın əsas təməllərindən biri sayılmaqdadır.

Professor Əziz Şərifin ədəbiyyatşünaslıq fəaliyyəti üçün səciyyəvi olan ədəbi fakt və hadisələrə kompleks yanaşma, novatorluq ruhu, açılmamış səhifələrə işıq salmaq istiqaməti onun Mollanəsrəddinçilərlə bağlı tədqiqatlarında da mühüm yer tutur. Təsadüfi deyil ki, ustad alim böyük Mirzə Cəlil haqqında çoxsaylı faktlar və materiallar toplamış, ilk dəfə elmi dövriyyəyə gətirmiş, o cümlədən ədibin "Binəsiblər", "Xeyir-dua" adlı dəyərli məqalələrini ilk dəfə aşkara çıxarmış və ədəbi ictimaiyyətə təqdim etmişdir. Mirzə Cəlilin dayısı, Mollanəsrəddinçi şair Əli Babayevin poetik irsinin üzə çıxarılaraq araşdırılması kimi faktlar da bu qəbildəndir.

Əziz Şərif publisistika və ədəbi tənqid sahəsində də özünün mötəbər sözünü demişdir. İlk məqaləsi hələ on bir yaşındaykən mətbuatda dərc olunan Əziz Şərif illər boyu yazıb-yaratmış, Bakı, Tiflis, Moskva və digər şəhərlərdə müxtəlif dillərdə çıxmış mətbuat orqanlarının səhifələrində ədəbi-mədəni, sosial-siyasi mövzularda çoxsaylı məqalələr dərc etdirmişdir. Onun ədəbi irs və müasirlik, tərcümə sənəti, teatr və dramaturgiya problemləri, ədəbiyyat və mədəniyyətdə xəlqilik, millilik, Vətən taleyi və sair mövzulardakı məqalələri bu gün də dəyərini saxlamaqdadır.

Əziz Şərif bədii tərcümə ilə də ardıcıl məşğul olmuşdur. Xatirələrindən öyrənirik ki, o hələ 1911-1912-ci illərdə Bakıda çıxan "İşıq" qəzetində bir sıra tərcümələr dərc etdirmişdir. Sonrakı illərdə bu istiqamətdə daha ardıcıl fəaliyyət göstərən ədəbiyyatşünas-alim müxtəlif yazıçıların bir sıra əsərlərini böyük məharətlə doğma dilimizə çevirmişdir. N.V.Qoqolun "Evlənmə", M.Qorkinin "Ana", "Düşmənlər", A.Çimbenin "Dərə adamları", A.Fadeyevin "Tarmar" və digər nümunələrin rus dilindən, E.Ninoşvili və N.Mijişvilinin bəzi əsərlərinin isə gürcü dilindən yüksək səviyyədə tərcüməsi onun böyük zəhməti və professionallığı sayəsində gerçəkləşmişdir. O eyni zamanda Azərbaycan ədəbiyyatının C.Məmmədquluzadə, M.S.Ordubadi, Ə.Haqverdiyev, C.Cabbarlı, S.Rəhimov, Mir Cəlal, M.Hüseyn, Ə.Məmmədxanlı və digər tanınmış nümayəndələrinin bir sıra əsərlərini rus dilinə çevirərək çap etdirməklə, həmin nəşrlərin bir çoxuna dərin məzmunlu ön söz yazmaqla söz sənətimizin respublikamızdan kənarlarda tanıtdırılması və təbliği işinə layiqli töhfələr vermişdir. Görkəmli alimin rus və digər dillərdə çap olunmuş kitab və məqalələri də bu baxımdan xüsusi dəyərə malikdir. Mirzə Cəlilə aid monoqrafiyasının Bakıda rusca nəşrini, XVIII əsr poeziyamızın böyük ustadı M.P.Vaqif haqqında kitabının Moskvada çapını yada salmaq kifayətdir.

Xalqımızın böyük ziyalısının qiymətli memuarları da vardır. Onun "Keçmiş günlərdən" adı altında birləşən və irihəcmli kitablar halında oxuculara çatdırılan xatirələri ötən əsrin böyük bir mərhələsinin ədəbi-mədəni salnaməsidir. Bu xatirələr həmin dövrün tədqiqi ilə bağlı zəngin material verir. Görkəmli alimin Bakıda S.Mümtaz adına Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində qorunan şəxsi fondu da bu baxımdan son dərəcə qiymətlidir.

Ümumiyyətlə, professor Əziz Şərif çoxşaxəli yaradıcılıq fəaliyyəti, sabit vətəndaş amalı ilə Azərbaycan ziyalılarının ən mötəbər nümayəndələri sırasında layiqli yer tutur. Onun yaxın dostu, ustad alim Abbas Zamanov 1990-cı ildə məktublarının birində yazırdı: "Əziz Şərif unudulası adam deyil, nadir şəxsiyyətdir". Belə bir nadir şəxsiyyəti unutmayıb yubileyinin keçirilməsi haqqında Sərəncam vermişi, görüləcək işlər barədə Tədbirlər Planını təsdiq etməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun bütün digər sahələrlə yanaşı, elmə, təhsilə, ədəbiyyata, mədəniyyətə ardıcıl və möhtəşəm qayğısının növbəti parlaq təzahürüdür.

*Son illərdə muxtar respublikamızda M.Şahtaxtlı, M.T.Sidqi, C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, A.Zamanov, İ.Səfərli, M.Araz kimi ədib və alimlərin yubileyləri ilə əlaqədar həyata keçirilən tədbirlər, onların xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin nəşri və tədqiqi istiqamətində görülən fundamental işlər məhz muxtar respublika rəhbərinin böyük qayğısı, yüksək himayəsi sayəsində reallaşmışdır. Bütün bunlara görə Naxçıvanda yaşayıb fəaliyyət göstərən hər bir ziyalı kimi, biz ədəbiyyatşünaslar da dərin minnətdarlığımızı bildiririk!*

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi***

***Bu rubrikada biz müasir Naxçıvanın inkişaf tarixindən bəhs edəcəyik. Qədim Naxçıvana xəyali səyahət edəcək, müasir Naxçıvanın keçdiyi intibah yoluna nəzər salacağıq. Rubrikanın ilk yazısı "Qədim Nəqşi-cahana müasir baxış" adlanır.***

İnkişafın hekayəsi

# Qədim NƏQŞİ-CAHANA müasir baxış



Rəvayət edirlər ki, dağların qoynunda, təbiətin ən sərt, ciddi iqliminin hökm sürdüyü "Naksuana" adlı bir torpaq varmış.

Tarixin müxtəlif dövrlərində Azərbaycan Atabəyləri, Naxçıvanşahlıq dövlətlərinin və Naxçıvan xanlığının paytaxtı olmuş, vilayət və qəza bölgə mərkəzi kimi inkişaf etmiş Naxçıvan şəhərinin 5 minillik şəhər mədəniyyəti tarixi vardır.

Orta əsr ərəb və farsdilli mənbələrdə bu torpağın adı "Nəşavə", "Neqçuan" (Nəxçuan, Nəxçuvan, Nəxçəvan) şəkillərində işlənmişdir.

Bu yerlər çox-çox qədimlərdən insan məskəni olub. Henrix İohann Hübşman "Naxçıvan" toponimini Nuh Peyğəmbərlə bağlı "Dünya tufanı" hadisəsi ilə əlaqələndirir. Onun fikrincə, "Naxçıvan" toponimi "törəyiş yeri" anlamını verməkdədir. Həm türk, həm də əcnəbilərin marağını özünə cəlb edən bu diyar tarixdən müasir dövrümüzədək diqqət mərkəzində olmuşdur.

Naxçıvan – qədim və sirli diyar… Əsrarəngiz gözəlliyin, sərt təbiətin, səmimi insanların məskəni, Nuh yurdu.

Bu nurlu diyarda inkişafın yeni zirvələrini yaşadıqca xəyalən keçmişə qayıtmalı olursan. Və keçmişlə indini müqayisə edəndə, inkişafı təhlil edəndə təəccüblənirsən; düşünürsən: hardan, hara…

Tarixən hökmdarların cəng meydanına çevrilən, həmçinin bir çox dövlətin mədəniyyət mərkəzi kimi şöhrət qazanan Naxçıvan qədim abidələri, nekropolları, qayaüstü rəsmləri ilə şanlı tariximizin salnaməsini özündə barındırır.

Qədim Naxçıvanın tarixi xeyli keşməkeşli olub. Coğrafi mövqeyinə görə Naxçıvan əsrlər boyu yadellilərin hücumuna məruz qalıb, dövrün qüdrətli ordularının çəkişmələrinə şahidlik edib. Sərvəti dəfələrlə dağılan bu qədim yurd yenidən var olmağın bir yolunu tapıb. Tarixi mənbələr sübut edir ki, Naxçıvanın xilafətə daxil edilməsi bölgədə islamlaşma prosesinin başlamasına səbəb olub. Mərkəzi Asiyadan Kiçik Asiyaya axın edən Səlcuq türkləri 1064-cü ildə Naxçıvanı tutaraq burada ərəb təsirinin yayılmasının qarşısını alıb, türk-islam mədəniyyətinin formalaşmasına təkan veriblər.

Naxçıvanda ta qədimdən zərbxanalar olub. Burada neçə-neçə hökmdarın adına sikkələr kəsilib.

...Sonra Şəmsəddin Eldəniz Azərbaycan Atabəylər dövlətinin (1136-1225) əsasını qoyub və Şəmsəddin Eldənizin bölgəyə hakim olması ilə Atabəylər dönəmi, Eldənizlər dövrü başlayıb. XII yüzilliyin ortalarında Naxçıvan Eldənizlər dövlətinin tərkibində idi. Bu dövrdə Naxçıvan əsas ticarət və sənətkarlıq mərkəzinə çevrilir. 1136-cı ildən 1175-ci ilədək bu dövlətin paytaxtı olan və sürətlə inkişaf edən şəhər iqtisadi və hərbi əhəmiyyətə malik idi. Bu illər ərzində Naxçıvan çiçəklənmə dövrünü yaşayıb.

Sonralar Naxçıvan Xarəzmşahların, Hülakülərin, Çobanilərin, Cəlairilərin, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Osmanlı və sair dövlətlərin hakimiyyəti altına düşüb. 1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycan ərazisi müstəqil xanlıqlara parçalanıb, bunlardan biri də Naxçıvan xanlığı olub.

Təəssüf ki, XIX əsrin ilk illərindən başlayaraq Azərbaycan Rusiya-İran ordularının döyüş meydanına çevrilib, 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələrinə əsasən, dövlətlər arasında bölünən torpaq sonralar separatçı və terrorçu ermənilərin təcavüzünə məruz qalıb.

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda çoxlu sayda tarixi abidələr mövcuddur. Naxçıvan həm də XII yüzillikdə yaşayıb-yaratmış məşhur memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin vətənidir. Onun Naxçıvan şəhərində inşa etdiyi Yusif Küseyir oğlu (1162) və Möminə xatın türbələri (1186) memarlıq tarixində özünəməxsus mövqeyə malik olan Naxçıvan memarlıq məktəbinin əsasını təşkil edir.

Tarixi abidələrinin sayına görə Ordubad şəhəri 1977-ci ildə qoruq-şəhər elan olunub. Kəskin kontinental iqlimə malik regionda nadir relyef formalarından Haçadağ, Əshabi-Kəhf, Sirab, Nəhəcir ekstruziv (vulkanik) günbəzləri maraqlı təbiət abidələridir. Təbiət bu yerlərə əsrarəngiz gözəlliklər bəxş edib.

Rəvayətvari bir girişlə başlasaq da, sadaladıqlarımızın hamısı tarixi həqiqətdir, reallıqdır. Tarixin ağır sınaqlarından mərdliklə çıxmış qədim yurd yeri Naxçıvan bu gün inkişafının zirvəsini yaşayır.

Naxçıvan Muxtar Respublikası bu günə qədər, xüsusilə 1924-2014-cü illəri əhatə edən 90 illik dövrdə, ümumilikdə, ölkəmizin iqtisadi-siyasi həyatında müstəsna rol oynayıb. Zaman keçdikcə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən inkişafyönümlü hadisələr burada yeni mərhələnin də başlanmasına imkan verib, burada bir çox ilklərə imza atılıb.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, qədim yurdun ərazi bütövlüyü və təhlükəsizliyi naminə gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin edib.

Vətən sevgisi üzərində ucaldılan müasir Naxçıvan bu gün tarixinin əsl intibah dövrünü yaşayır, hər sahədə böyük nailiyyətlər qazanır. Beləcə, tarixin sınaqlarından uğurla çıxan Naxçıvanın keçmişi kimi, gələcəyi də şanlı yazılır.

**Nərgiz İSMAYILOVA**

## İxtisasartırma kursuna başlanılıb

***Yanvarın 26-dan etibarən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi normaları, qaydaları və standartlarına əməl olunması" mövzusunda ixtisasartırma kursunun keçirilməsinə başlanılıb.***

Kursa Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Sədərək Rayon idarələrinin, "Gəmiqaya İnşaat","Dizayn İnşaat","Cahan İnşaat" Məhdud Məsuliyyətli cəmiyyətlərinin, "Əcəmi TQ" Açıq Səhmdar Cəmiyyətinin, Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin sahə rəisləri və əməyin mühafizəsi üzrə, ümumilikdə, 12 mütəxəssis cəlb edilib.

7 gün davam edəcək kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən iş yerlərinin əməyin mühafizəsi və təhlükəsizliyi normaları, qaydaları və prinsiplərinə uyğunlaşdırılması, fərdi və kollektiv mühafizə vasitələrindən düzgün istifadə olunması və bu istiqamətdə daxili nəzarətin gücləndirilməsi, baş verə biləcək bədbəxt hadisələr və peşə xəstəliklərinin qarşısının alınması mövzularından bəhs ediləcək. Bundan başqa, əyani vasitələrlə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin, Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri tərəfindən iş sahəsində əməyin mühafizəsi və təhlükəsizlik tədbirlərinin görülməməsinə görə məsuliyyət, iş yerlərində sağlam sanitariya-gigiyena şəraitinin yaradılması, baş verən qəzalar və zərərçəkənə ilk tibbi yardımın göstərilməsi, baş verən bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından işçilərin icbari sığorta olunmasının zəruriliyi ilə bağlı müvafiq mövzular tədris olunacaq.

Yekunda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## "Bakı-2015" Avropa Oyunlarının tanıtımı davam edir

***Artıq üç gündür ki, "Bakı-2015" Avropa Oyunlarının tanıtımı məqsədilə Naxçıvan Muxtar Respublikasında olan "Bakı-2015" Avropa Oyunlarının Əməliyyat Komitəsinin üzvləri dünən növbəti tanıtım tədbirini həyata keçirib. Bu dəfə komitə üzvləri muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının idmançıları və müəllimləri ilə görüş təşkil ediblər. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən tədbirdə əvvəlcə Avropa Oyunlarına həsr edilmiş videoçarx nümayiş etdirilib və tədbir iştirakçılarına "Bakı-2015" Avropa Oyunları haqqında geniş məlumat verilib.***

Sonra ənənəvi olaraq Avropa Oyunlarına daxil edilən idman növlərinin muxtar respublika gəncləri arasında populyarlığı haqqında sorğu təşkil edilib. Sorğudan sonra dünya və Avropa arenalarında uğur qazanan naxçıvanlı idmançılar tamaşaçılara təqdim edilib.

Sonda "Bakı-2015" Avropa Oyunlarının loqo və simvolları əks olunan çanta və papaqlar idmançılara hədiyyə edilib.

Qeyd edək ki, analoji tədbir dünən Şərur rayonunda da keçirilib.

"Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin üzvləri dünən Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət edib, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.

"Buradakı idman obyektləri beynəlxalq standartlar əsasında inşa olunub və uzun müddət ölkə idmanı üçün fayda verəcək səviyyədədir. Bu cür tanıtım tədbirləri muxtar respublikanın bütün rayonlarında təşkil ediləcək". Bu fikirləri Naxçıvan Muxtar Respublikasında olan "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsinin Kommunikasiya şöbəsinin direktoru Uilyam Lui-Mari deyib.

Qonaq qeyd edib ki, Azərbaycanda son illər idmanın inkişafı öz bəhrəsini verməkdədir və Avropa Oyunları tarixi an kimi yaddaşlara həkk olunacaq: "Məqsədimiz Azərbaycanda baş tutacaq Birinci Avropa Oyunlarını tarixi ana çevirmək və idmançıların karyeralarında silinməyəcək iz buraxmaqdır. Bu məqsədə çatmaq üçün yaradılan şəraitə görə minnətdarlığımızı bildiririk".

**✍ Ceyhun MƏMMƏDOV**

## *Hüquqi maarifləndirmə günün tələbidir*

***Sual:*** *Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi qanunvericiliklə necə tənzimlənir?*

***Cavab:*** Azərbaycan Respublikasının Ailə Məcəlləsinə 17 oktyabr 2014-cü il tarixli qanunla edilmiş əlavə və dəyişikliklərə əsasən, yanvar ayının 1-dən nikaha daxil olmaq istəyən şəxslər tibbi müayinədən keçməlidirlər. Belə ki, Ailə Məcəlləsinin 13-cü maddəsinə əsasən, nikaha daxil olmaq istəyən şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən xəstəliklər üzrə tibbi müayinədən keçirlər.

Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir. Nikaha daxil olmaq istəyən şəxslərə onların tibbi müayinəsinin nəticələri ilə yanaşı, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış verilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış tibbi müayinədən keçmə faktını və Ailə Məcəlləsinə uyğun olaraq, tibbi məsləhətin verildiyini təsdiq edir və həmin şəxslərin tibbi müayinəsinin nəticələrini əks etdirmir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış onların müvafiq icra hakimiyyəti orqanına nikaha daxil olmaq barədə verdikləri ərizəyə əlavə olunur. Müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri nikaha daxil olmaq istəyən şəxslərdən onların tibbi müayinəsinin nəticələrini tələb edə bilməz. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydası və nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin nəticələri həkim sirridir.

Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər.

Nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin, Ailə Məcəlləsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır. Həmçinin nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı, Ailə Məcəlləsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi və onların nikah yaşına çatmaları zəruridir. Tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı təqdim etməkdən imtina edən şəxslər arasında nikahın bağlanmasına yol verilmir. Nikaha daxil olmağı arzu edənlər nikaha daxil olanlardan və ya onların valideynlərindən birinin seçdiyi hər hansı bir müvafiq icra hakimiyyəti orqanına bu barədə şəxsən yazılı ərizə verirlər. Nikaha daxil olmaq barədə ərizəyə Ailə Məcəlləsinə uyğun olaraq, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayış da əlavə olunur.

Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə hüquqları pozulmuş şəxslər nikahın etibarsız sayılmasını tələb etmək hüququna malikdirlər. Nikaha daxil olan şəxslərdən biri özündə dəri-zöhrəvi xəstəliyinin və insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin olmasını o birindən gizlətdikdə bağlanan nikah (saxta nikah) etibarsız sayılır və digər tərəf nikahın etibarsız sayılması tələbi ilə məhkəməyə müraciət edə bilər. Nikah məhkəmə qaydasında etibarsız sayılır. Etibarsız hesab edilmiş nikah onun bağlandığı gündən etibarsız sayılır.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

*Yeni nəşrlər*

## Naxçıvanın urbanonimləri

***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Adil Bağırovun Əməkdar elm xadimi, akademik İsmayıl Hacıyevin elmi redaktorluğu ilə 2014-cü ildə işıq üzü görmüş monoqrafiyası elmi ictimaiyyət üçün yeni və aktual olan bir mövzunun – Naxçıvan Muxtar Respublikasında topoqrafik obyekt adlarının tədqiqinə həsr olunmuşdur.***




Qeyd edək ki, Adil Bağırov 30 ildən artıqdır, bu sahənin tədqiqi ilə məşğul olur. Onun bir sıra monoqrafiya və əsərlərində, elmi məqalələrində urbanonim probleminin ayrı-ayrı cəhətləri araşdırılaraq ictimaiyyətə təqdim edilmişdir. 1590-cı ildən günümüzədək olan dörd əsrlik bir dövrdə qədim türk yurdu Naxçıvanın ərazisindəki tarixi adların öyrənildiyi "Naxçıvan urbanonimləri" kitabını alimin bu sahədəki çoxillik tədqiqatlarının uğurlu hesabatı kimi qəbul etmək olar.

Xüsusən Naxçıvan Muxtar Respublikasının ərazisindəki topoqrafik adların öyrənilməsindəki boşluq alimi məhz bu mövzunun öyrənilməsinə sövq etmişdir ki, nəticədə, muxtar respublikamızın yaradılmasının 90 illik yubileyinə həsr olunmuş sanballı bir əsər ortaya qoyulmuşdur. Əsərin yazılma motivindən bəhs edən müəllif haqlı olaraq qeyd edir ki, Naxçıvanda hər bir tarixi ad Azərbaycan xalqının milli ruhundan, yüksək milli-mənəvi təfəkküründən xəbər verir. Alim öz ənənəvi tədqiqat üslubuna sadiq qalaraq topoqrafik obyekt adlarının həm tarixi, həm də linqvistik baxımdan tədqiq olunmasına eyni səviyyədə diqqət göstərmiş, urbanonimlərin dilimizin onomastik sisteminin öyrənilməsindəki əhəmiyyətini əsaslandırmışdır.

Tarixi mənbələrin diqqətlə araşdırıldığı əsərin "Məhəllə və meydan adları" adlanan bölməsində, xüsusən Naxçıvan və Ordubad şəhərlərinin qədim məhəllə adları ilə yanaşı, müxtəlif sənət sahələri ilə məşğul olan ayrı-ayrı sənətkarların adı ilə çağırılan döngə adları da qeyd edilir ki, bu da hər iki şəhərin mühüm sənətkarlıq mərkəzi kimi formalaşdığını deməyə əsas verir. Bundan başqa, xüsusilə XVIII əsrə aid məlumatlardan aydın olur ki, həmin dövrdə Naxçıvan şəhərində 5 bazar, 191 dükan, 21 dəyirman, 279 sənətkar emalatxanası, Ordubad şəhərində isə 1 böyük bazar, 210 dükan, 2 bəzirxana, 2 sabunxana, 5 dəyirman, 5 karvansara və Araz çayında 1 iskələ fəaliyyət göstərmişdir. XIX əsrdə isə Naxçıvan şəhəri özündə 13 məhəlləni birləşdirən Əlixan, Şahab, Sarvanlar və Qurdlar adlı 4 böyük kvartala bölünürdü. Monoqrafiyada XVI əsrin sonundan XXI əsrədək olan dövrdə yalnız Naxçıvan şəhərində və rayon mərkəzlərində deyil, hətta bir sıra kəndlərdə tədqiqatın əhatə etdiyi tarixi dövrdə mövcud olan 100-dək məhəllə, meydan və xiyaban adlarının geniş şərhi verilir.

Kitabın "Prospekt və küçə adları" adlanan bölməsində belə bir fakt diqqəti cəlb edir ki, Naxçıvan şəhərində küçələrə adların verilmə tarixi 115 il əvvələ, 1899-cu ilə aiddir. Məhz həmin ildə görkəmli pedaqoq M.T.Sidqinin təşəbbüsü ilə A.S.Puşkinin anadan olmasının 100 illik yubileyi münasibətilə Naxçıvan şəhərindəki küçələrdən birinə böyük rus şairinin adı verilmişdir. Ümumiyyətlə isə küçələrə rəsmi şəkildə adların verilməsi praktikası 1920-ci ildə Azərbaycanda və Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan sonra geniş yayılmış, 1989-cu ilədək küçələrə verilən adlar, bütünlüklə, sovet quruluşu və ideologiyası ilə bağlı olmuşdur. Əsərdə Naxçıvan və Ordubad şəhərləri ilə yanaşı, muxtar respublikamızın qəsəbə və iri kəndlərində əksini tapmış 80-ə yaxın belə küçə adları sadalanır və sovet rejiminin tənəzzülünün başladığı 1989-1990-cı illərdə, müstəqillik ərəfəsində Naxçıvanda milli-tarixi yaddaşın bərpası kimi həmin küçə adlarının öz tarixi adları ilə və ya yeni dövrün tələblərinə uyğun hadisələrlə, görkəmli şəxsiyyətlərin adları ilə əvəz edildiyinə dair geniş məlumat verilir. Əsərə daxil edilən eyniadlı cədvəldə 1 sentyabr 2014-cü ilə aid olan rəsmi məlumatlar əsasında Naxçıvan şəhərində 76, Şərur şəhərində 16, Ordubad şəhərində 37, Culfa şəhərində 21, Şahbuz şəhərində 26, Babək qəsəbəsində 20 prospekt və küçənin, bütövlükdə, 196 bu tip topoqrafik adın şamil edildiyi ərazi, onların əvvəlki adı və sair barədə ətraflı məlumat əldə etmək mümkündür.

Monoqrafiyanın "Kənd mərkəzləri" adlanan bölməsi Azərbaycan dilinin onomastik leksikasına son illərdə daxil olan urbanonimlər kimi şərh edilir. Müəllif tamamilə haqlı olaraq qeyd edir ki, kənd mərkəzləri və onların adları ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uzaqgörənliyi, şəxsi təşəbbüsü və böyük qayğısı ilə muxtar respublikamızın ərazisində son illərdəki dinamik sosial-iqtisadi inkişafın uğurlu nəticəsi kimi meydana gəlmişdir. Əgər əvvəlki dövrün kənd meydanları 1-2 çayxana və mağazadan ibarət, bəzən kəhrizin və ya kənd klubunun yerləşdiyi kiçik, darısqal, tozlu-torpaqlı məhəllələrdən ibarət idisə, indi artıq kəndlərdə əhaliyə mədəni-məişət, səhiyyə, poçt, rabitə, ticarət və sair mühüm xidmətlər göstərən 101 kənd mərkəzi tikilib istifadəyə verilmiş, 16 mərkəzdə yenidənqurma və əsaslı təmir işləri aparılmışdır. Hazırda muxtar respublikamızın digər kənd yaşayış məntəqələrində də belə mərkəzlərin inşası iş sürətlə davam etdirilir ki, bu da, əslində, şəhərlə kənd arasında fərqin aradan qaldırılması siyasətinin çox uğurlu nəticələri kimi qeyd olunmalıdır.

Əsərin "Urbanonimlərin leksik-semantik xüsusiyyətləri" adlanan bölməsində muxtar respublika ərazisində olan topoqrafik adlar 14 qrupa ayrılır və hər qrup üzrə urbanonimlər sadalanır ki, ərazi adlarının bu cür orijinal təfsiri monoqrafiyanın sanbalını daha da artırır. "Qısa urbanonimlər sözlüyü" adlanan bölməyə 700-dən artıq məhəllə, meydan, kənd mərkəzi, prospekt və küçə adları daxil edilmişdir ki, bunların böyük bir qisminin tarixi-semantik səciyyəsi müəllif tərəfindən monoqrafiyada ətraflı izah olunmuşdur.

Kitabı diqqətlə oxuduqdan sonra bu qənaət hasil olur ki, xalqımızın keçmişindən yadigar qalan mənəvi sərvət kimi zəngin leksik mənaya, semantik tutuma və mühüm tarixi informasiya yükünə malik Naxçıvan urbanonimlərinin əsas fondunu türk mənşəli adlar təşkil edir. Bu adlar xalqımızın tarixi, dili, etnik tərkibi, etnoqrafiyası, məşğuliyyət sahələri, ayrı-ayrı ictimai-siyasi hadisələr və sair haqqında təsəvvür yaratmaqla tarixi keçmişimizlə müasir dövr arasında mənəvi körpü rolunu oynayır. AMEA-nın müxbir üzvü Adil Bağırovun uzun illərin alim zəhmətinin bəhrəsi olan "Naxçıvan urbanonimləri" monoqrafiyası yalnız elmi ictimaiyyət və bu mövzunun tədqiqatçıları üçün mühüm bir mənbə deyil, eyni zamanda yerli icra hakimiyyəti və bələdiyyə orqanlarının, habelə muxtar respublikamızın bütün sakinlərinin marağına səbəb olacaq dəyərli bir əsərdir.

**Elman CƏFƏRLİ**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

### *İtmişdir*

Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1-də yerləşən özəlləşdirilmiş "Naxçıvan" marketinin 14 iyul 2000-ci ildə verilmiş sənədləri itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Binyət Heydər oğluna məxsus Şərur rayonunun Arpaçay kəndində olan yaşayış binasının "Bank of Azerbaijan" ASC 12 saylı Naxçıvan filialının xeyrinə yüklülük şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Kərəm Həsənov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 4020. Sifariş № 69**